Yaddaşlarda yaşayanlar

# Lütfiyar İmanov uzaqgörənliyi...

## Böyük sənətkar Tehranın səmimiliyinə o qədər də inanmamışdı



**Azərbaycan mətbuatının müstəqilliyin ilk illərindəki ab-havasını, ərzihalını, yəqin ki, heç kəs unutmayıb. Hamı öz "fakt"ını həqiqət kimi təqdim edirdi. Həmin günlərdə xəbər yayılmışdı ki, SSRİ Xalq artisti Lütfiyar İmanov Almaniyaya qaçıb. (!?) Bir az insaflı müxbir isə yazmışdı ki, o, siyasətçi deyil ki, qaça, sadəcə, işləməyə gedib (Üç-dörd aydan sonra dəqiqləşdirərək yazdılar ki, sənətkar Almaniyada bir həftə qalaraq İzmirə gəlib və orada işləməyə başlayıb).**

Qərəz, mən də böyük sənətkarın bir Avropa ölkəsinə "qaçmasını" eşidən kimi o vaxt çalışdığım dövlət radiosundakı "Səhər" musiqili informasiya proqramı" adlı müəllif verilişində od püskürdüm: "Torpaqlarımızın işğal olunduğu, ölkədaxili qarşıdurmaların və müstəqilliyimizi gözü götürməyən xarici bədxahlarımızın



təhdidlərinin baş alıb getdiyi bir vaxtda dünya şöhrətli sənətkarımızın ölkədən getməsinə necə haqq qazandırmaq olar?"

Veriliş səhər saat 7-dən 8-ə qədər 1-ci proqramda gedir, 8-dən 9-a qədər isə "Araz" radiosu ilə təkrar yayılırdı. "Araz"dakı veriliş qurtarandan bir-iki saat sonra mənə dedilər ki, sənə xaricdən telefon zəngi var. Baş redaktorun otağına getdim. Lütfiyar İmanov idi: "Mən sizi tanımıram. Bəlkə də yaşlı adamsınız. Ancaq səsdən cavan adama oxşayırsınız. Demək istəyirəm ki, əvvəla, mən Almaniyada yox, Türkiyədəyəm. İkinci, Azərbaycanda mənə göstərilən münasibəti siz öz üzərinizdə hiss etsəydiniz Almaniyaya yox, Anqolaya qaçardınız. Mən Türkiyədə daimi qalmayacağam. Daimi olan sözdü, səsdi, mədəniyyətdi. Yayılan şayiələrə əsaslanıb danışanda sözü hörmətsiz edirsiniz. Sağ olun!"

... Sonra xalq Ulu öndəri siyasi hakimiyyətə gətirdi, ölkədə vəziyyət duruldu və Lütfiyar İmanov da Azərbaycana qayıtdı. Lap sonralar isə Heydər Əliyev onu "İstiqlal" ordeninə və Prezidentin fərdi təqaüdünə layiq gördü.

... İndi isə sərlövhədəki arqumentimiz barədə. Bəstəkar Tofiq Bakıxanov yaradıcılıq işində ölkədə gedən ictimai-siyasi prosesləri daim diqqət mərkəzində saxlayır. Onun ictimai-siyasi məzmunlu bir neçə musiqi əsəri var. Hətta, Xəzər neftçilərinin həyatını balet səhnəsinə gətirib. Ulu öndər Heydər Əliyevin 1994-cü il iyunun 29-dan iyulun 2-dək davam edən Tehran səfərində Azərbaycanla İran arasında müxtəlif sahələrdə əməkdaşlığı nəzərdə tutan müqavilələr bağlanmış, Xarici işlər naziri Vilayəti ilə danışıqlardan sonra Ermənistanın təcavüzünü ittiham edən bəyanat imzalanmışdı. Tofiq müəllim isə İran mövzusunda mahnılar yazılması təşəbbüsü ilə çıxış etmişdi.

Bununla bağlı tarix elmləri doktoru, şair Şahin Fazil, Baba Pünhan və mən mahnı mətnləri yazdıq. Mənim sözlərimə yazılan mahnını Lütfiyar İmanov oxudu və Tofiq müəllim bu musiqinin Bakı, İstanbul, Ankara, Təbriz və Tehran radiolarının fonduna daxil edilməsinə nail oldu.

İş elə gətirdi ki, Bakı Musiqi Akademiyasında keçirilən tədbirlərin birində Tofiq müəllimin bir tərəfində Lütfiyar İmanov, digər tərəfində isə mən əyləşməli oldum. Tofiq müəllim məni müğənniyə təqdim edəndə böyük sənətkar yaddaşını eşələyirmiş kimi bir az dayandı və dedi ki, Xan, Mirzəbəyli ilə biz həm efirdən, həm də telefonla tanış olmuşuq. Lütfiyar İmanov Tofiq Bakıxanova, sadəcə, "Xan" deyə müraciət edirdi.

Başqa bir tədbirdə isə Lütfiyar İmanovun Tofiq Bakıxanovdan belə bir xahişi oldu: "Xan, əgər mümkünsə, oxumaq üçün mənə verəcəyin mahnının sözləri ilə əvvəlcədən tanış olum. Məsələn, bu dostunun (məni göstərdi) sözlərinə yazdığın mahnı nə zamansa bizi narahat edə bilər".

Tofiq müəllim öz addımını Heydər Əliyevin siyasəti ilə əsaslandırmağa çalışanda Lütfiyar İmanovun da öz arqumenti oldu: "Heydər Əliyev xalqı üçün sülhə can atır və nail olur. Ancaq sənin hansısa xarici siyasətçinin sözünə, vədinə, imzasına inanmağın düz deyil. Sabah yenə də həmin siyasətçilərlə 90-cı illərin əvvəlindəki kimi soyuqluq yaransa, biz xalqa nə deyəcəyik?"

Həqiqətən, böyük sənətkarın, təxminən, 25 il əvvəl narahatlıqla dilə gətirdiyi həmin proqnozların real həyatdakı təsdiqini sonralar dəfələrlə gördük. Hətta 44 günlük İkinci Qarabağ müharibəsində də həmin xarici siyasətçilər bizi deyil, işğalçı Ermənistanı dəstəkləmişdilər.

Allah Lütfiyar İmanova rəhmət eləsin!

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***